AFFA

Azərbaycan Futbol
Federasiyaları Assosiasiyası

BİZ **BİRLİKDƏ** GÜCLÜYÜK!

# KLUBLARIN LİSENZİYAŞDIRILMASI ÜZRƏ HESABAT 2016



# Ön söz

Ənənəvi olaraq, AFFA-nın Klubların Lisenziyalaşdırılması üzrə III hesabatını Sizə təqdim edirik.

İnanırıq ki, hesabatda əks olunmuş məlumatlar AFFA, PFL, klublar və bütün futbol ailəsinin üzvləri üçün maraqlı olacaq. Hesabatda lisenziyalaşdırma ilə bağlı müxtəlif məlumatlar və müqayisəedici göstəricilər yer almışdır.

Lisenziyalaşdırma prosesinin həyata keçirilməsi klub futbolu üçün ən vacib amillərdən biridir. Ötən mövsüm onu göstərdi ki, klublar bu prosesə daha da məsuliyyətlə və diqqətlə yanaşmalıdır. Maliyyə çətinlikləri dövründə klublarda düzgün idarəetmə və peşəkar yanaşma çox vacibdir. Lisenziyalaşdırma sisteminin əsas məqsədlərindən biri də, məhz bu cür peşəkar yanaşmanın stimullaşdırılmasıdır.

Bu hesabat 2015-2016-cı il Premyer Liqa mövsümünü və 2015-ci maliyyə ilini əhatə etməklə 30.04.2016-ci il tarixinə mövcud olan vəziyyəti əks etdirir. Hesabatda əks olunan göstəricilər klubların nailiyyətləri ilə bərabər, müəyyən çatışmazlıqları da əhatə edir.

Bu cür hesabat artıq üçüncü dəfə olaraq ictimaiyyət və futbol ailəsinin üzvləri üçün açıqlanır. Müəyyən göstəricilərin ictimaiyyətləşdirilməsinin ənənəvi hal aldığını müsbət qiymətləndirərək, inanıram ki, bu cür hesabatlar klub futbolunun inkişafına öz töhfəsini verəcəkdir.

**Rövnəq Abdullayev**
AFFA-nın prezidenti

# Mündəricat


**Maraqlı faktlar** 5

**Lisenziyalaşdırma üzrə statistik göstəricilər** 7

**2015-16-cı il lisenziyalaşdırma mövsümündə qaydalarda dəyişikliklər** 11

**Mövsüm ərzində keçirilmiş treninqlər, seminarlar və görüşlər** 13

**Meyarlar üzrə statistik göstəricilər**

- İdman meyarları **16**
- İnfrastruktur meyarları **20**
- Kadr-inzibati meyarları **28**
- Hüquq meyarları **36**
- Maliyyə meyarları **40**

**Hesabatı hazırlayanlar** 44

AFFA
Azərbaycan Futbol
Federasiyaları Assosiasiyası

# Mövsüm ərzində nə baş verib?

## Maraqlı faktlar

**2004-cü ildən etibarən klublara 120 lisenziya verilib**
(85 – UEFA, 35 – PL)

**Ötən mövsümə nisbətən uşaq-gənclər komandaların sayı 7% azalmışdır**

**Statistikaya əsasən mövsüm ərzində ən böyük azarkeş ordusuna Kəpəz klubu sahib olmuşdur**
(orta hesabla hər ev oyunda 13.369 nəfər)

**Ötən mövsümə nisbətən Premyer Liqa klublarında çalışan Azərbaycanlı məşqçilərin 83%-dən 94%-dək artmışdır**

**Ötən mövsümə nisbətən klubların ümumi gəlir və xərcləri azalıb**

**Həm Premyer Liqa, həm də UEFA oyunlarına bilet satışından olan ümumi gəlirlər artıb**



AFFA

Azərbaycan Futbol Federasiyaları Assosiasiyası

# Lisenziyalaşdırma üzrə statistik göstəricilər

# 2016-17-ci il lisenziyalaşdırma mövsümündə UEFA və Premyer Liqa yarışlarında iştirak etmək üçün verilmiş lisenziyalar

**PL lisenziyasını əldə etmiş klublar:**

Sumqayıt FK
Zirə PFK

**PL lisenziyasını əldə etməmiş klublar:**

Neftçala FK
Şərursport PFK
XəzərŞuşa-Qarabağ PFK
Bakı FK
Turan-T İK
Zaqatala FK
Qaradağ Lökbatan FK

**UEFA lisenziyasını əldə etmiş klublar:**

Qəbələ İK
İnter PİK
Qarabağ FK
Neftçi PFK
Kəpəz PFK
AZAL PFK

**UEFA lisenziyasını əldə etməmiş klub:**

Zirə PFK




QEYD: UEFA lisenziyasını əldə edən klublar avtomatik olaraq PL lisenziyasını əldə etmiş hesab olunurlar

# Lisenziya Komissiyasının qərarları (2004-2016)
# Klublar üzrə

2004-2016-ci illər ərzində Azərbaycanda 33 klub lisenziyalaşdırma prosesindən keçmiş və nəticələr aşağıdakı kimidir:

85 - UEFA lisenziyası verilib
19 - UEFA lisenziyası verilməyib
35 - PL lisenziyası verilib
34 - PL lisenziyası verilməyib



# Lisenziya Komissiyasının qərarları (2004-2016) İllər üzrə




# UEFA yarışlarında iştirak etmək üçün klublar tərəfindən sifariş olunmuş stadionlar



AFFA

Azərbaycan Futbol
Federasiyaları Assosiasiyası

# 2016-17-ci il lisenziyalaşdırma mövsümündə qaydalarda dəyişikliklər

## Lisenziyalaşdırma üzrə qaydalara (Buraxılış 2015) müəyyən dəyişik və əlavələr edilmişdir:

- Terminlərin müəyyən edilməsi hissəsi daha izahedici olmuşdur
- Meyarlar üzrə sənədlərin təqdim olunma vaxtları dəyişdirilmişdir
- «Gənclər futbolunun inkişafı proqramına» Oyunların ədalətli keçirilməsi (danışılmış oyunlara qarşı) üzrə təlim proqramı əlavə olunmuşdur.
- «Qızlardan ibarət komandanın məşqçisi» maddəsi əlavə olunmuşdur.
- «Əlil azarkeşlərlə əlaqələndirici şəxs» maddəsi əlavə olunmuşdur.
- «Məşqçilik ixtisası ilə bağlı öhdəliklər» maddəsi əlavə olunmuşdur.
- PL qaydalarına «Xüsusi icazənin verilməsi» maddəsi əlavə olunmuşdur.



AFFA

Azərbaycan Futbol
Federasiyaları Assosiasiyası

# Mövsüm ərzində keçirilmiş treninqlər, seminarlar və görüşlər




31.10.2015-ci il: 2016-17-ci il lisenziyalaşdırma mövsümünün açılış iclası keçirilmişdir.

İclasda son mövsümlərdə qeydə alınmış statistik məlumatlar təqdim olunmuşdur. Həmçinin qaydalarda baş vermiş dəyişikliklər, Maliyyə Fair



Play-i və UEFA-nın Klublara Maliyyə Nəzarət Orqanı barədə məlumat və mövsüm ərzində keçiriləcək treninq, seminar və görüşlərlə bağlı ətraflı məlumat verilmişdir. Həmçinin Lisenziyalaşdırma qrupunun pilot layihəsi (sənədlərin elektron halda qəbul olunması) barədə məlumat verilmişdir.




17 - 18.02.2016-cı il Bakıda UEFA-nın regional seminarı keçirilmişdir. Seminarda "Ötən Lisenziyalaşdırma mövsümünün icmalı və təhlili", "FİFA və UEFA-nın Klubların Lisenziyalaşdırılması üzrə qaydalarının müzakirəsi", "Lisenziyalaşdırma sisteminin inkişaf perspektivləri" mövzuları müzakirə olunur. Seminarın ilk günü iştirakçılar Bakı Olimpiya Stadionunda olub, stadionla bağlı ətraflı məlumat əldə ediblər.







23-25 sentyabr 2015-ci il tarixlərində Lisenziyalaşdırma qrupunun rəhbəri Elçin Məmmədov və ekspertlər Bəhram Dadaşov və Aynur Aynullayeva Xorvatiyanın Dubrovnik şəhərində keçirimiş UEFA-nın illik seminarında iştirak etmişdir.



6-9 avqust 2015-ci il tarixlərində Lisenziyalaşdırma qrupunun rəhbəri Elçin Məmmədov və ekspertlər Anar Kazımlı və Bəhram Dadaşov Makedoniyanın Skopye şəhərinə səfər etmişdilər. Səfərin məqsədi Makedoniya Futbol Federasiyası ilə təcrübə mübadiləsi aparmaq olmuşdur.


SGS

Association of Football
Federations of Azerbaijan

Club Licensing Quality Standard
Edition 2012

16.03.2015-ci il tarixdə İsveçrənin SGS şirkəti 2015-ci ildə AFFA-nın Lisenziyalaşdırma qrupunun fəaliyyəti ilə bağlı apardığı yoxlamanın nəticələrini açıqlayıb.
Şirkət tərəfindən AFFA-ya ünvanlanmış təbrik məktubunda qeyd olunub ki, AFFA-nın Lisenziyalaşdırma qrupunun fəaliyyəti UEFA-nın Klubların Lisenziyalaşdırma üzrə keyfiyyət standartlarına uyğundur və Lisenziyalaşdırma qrupu 2015-ci ildə Azərbaycan klublarının UEFA yarışlarında iştirakı ilə bağlı lisenziyalaşdırma prosesini həyata keçirmək hüququna malikdir.




11.04.2016-cı il Premyer Liqada çıxış edən klubların maliyyə menecerləri üçün UEFA-nın Maliyyə Fair Play IT proqramına (CL/FFP IT Solution) həsr olunmuş seminar təşkil olunub. Seminar zamanı UEFA-nın Maliyyə Fair Play qaydaları müzakirə olunub və klub nümayəndələri 2014-cü maliyyə ili üzrə müvafiq məlumatları qeyd olunmuş proqrama daxil ediblər.





16 may və 3 iyun 2016-cı il tarixlərində Lisenziyalaşdırma Komissiyasının iclasları keçirilib. İclaslarda 2016-17-ci il lisenziyalaşdırma mövsümü çərçivəsində klublar tərəfindən təqdim olunan sənədlərə baxış keçirilib, müvafiq qərarlar qəbul olunmuşdur.

AFFA
Azərbaycan Futbol
Federasiyaları Assosiasiyası

# Meyarlar üzrə statistik göstəricilər

## İdman meyarları

# Premyer Liqada çıxış edən klubların nəzdində olan uşaq-gənclər komandaların sayı və digər maraqlı faktlar

Uşaq-Gənclər komandalarının sayı




2016-17-ci il lisenziyalaşdırma mövsümündən etibarən UEFA lisenziyası üçün müraciət edən klublar* qızlardan ibarət komandanı təşkil etmişdir.

«Neftçi» PFK və «Qəbələ» İK qızlardan ibarət komanda təşkil etmişdir. «Qarabağ» FK, AZAL PFK, «Kəpəz» PFK, «Zirə» PFK komanda təşkil etməmişdir.

«İnter» PİK isə ötən mövsüm sahib olduğu komandaları azad etmişdir. PL lisenziyası üçün müraciət etmiş «Xəzər Lənkəran» FK və «Sumqayıt» FK-da qızlardan ibarət komandalar mövcuddur.

Meyarın tələblərinə cavab verməmiş klublar Lisenziya Komissiyası tərəfindən sanksiyalara məruz qalmışdırlar.

# Gənclər komandaları həftədə neçə dəfə məşq edir?

10-14 yaş qrupları




# Gənclər komandaları həftədə neçə dəfə məşq edir?

15-19 yaş qrupları və Qızlardan ibarət komandalar



# Gənclər futbolunun inkişafı proqramı
# Etibarlıq müddətləri (illərlə)




**Klublar tərəfindən tərtib olunmuş «Gənclər futbolunun inkişafı proqramları»nın əsas prinsipləri:**

- Yerli istedadlara öz bacarıqlarını daha da inkişaf etdirmək üçün imkan yaratmaq
- Yığma komandalar üçün oyunçu hazırlığı
- Təşkilatı və texniki bazanın gücləndirilməsi hesabına uşaq və yeniyetmələrin futbola cəlb olunması və s.

AFFA

Azərbaycan Futbol Federasiyaları Assosiasiyası

# İnfrastruktur meyarları üzrə statistik göstəricilər

# Premyer Liqa klublarının stadionları



# Komandaların ev oyunlarına orta hesabla neçə azarkeş gəlmişdir?
## (keçən mövsümlə müqayisədə)




**Zirə FK, Rəvan FK, Kəpəz PFK**
2014-2015 mövsümündə I Divizionda cıxış etdiklərinə görə azarkeş sayı göstəriciləri qeyd olunmamışdır.

| | Kəpəz | Xəzər Lənkəran | Qarabağ | Neftçi | Qəbələ | Sumqayıt | Zirə | İnter | Rəvan | AZAL |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 2015-2016 | 13.369 | 3706 | 1721 | 1644 | 1408 | 1326 | 1111 | 671 | 467 | 378 |
| 2014-2015 | 0 | 3163 | 1491 | 1416 | 1756 | 1224 | 0 | 841 | 0 | 356 |

- Ötən mövsümdə azarkeşlərin hər oyuna gəlmə sayı orta hesabla 1398 olmuşdursa, 2015-16-cı il mövsümündə bu rəqəm təxmini 84% artaraq, 2580 nəfərə çatmışdır.
- Statistikaya əsasən ən böyük azarkeş ordusuna Kəpəz klubu sahibdir (13.369 nəfər);
- Xəzər Lənkəran (17.16%), Qarabağ (15.43%), Neftçi (10%), Sumqayıt (8.33%) klublarında azarkeş sayının artımı müşahidə olunur;
- Qəbələ (-20%) və İnter (-20%) klublarında azarkeş sayının azalması qeydə alınıb;
- AZAL azarkeşlərinin sayında kəskin dəyişiklik baş verməyib (22 nəfər artıb).

# Cari mövsüm üzrə oyunlara gələn azarkeşlərin sayı (%)



# Növbəti mövsümdə **Premyer Liqa** klubları tərəfindən aşağı yaş qrupu komandalarının ev oyunları üçün istifadə ediləcək meydançalar

| | AZAL | Qarabağ | Zirə | İnter | Kəpəz | Sumqayıt | Neftçi | Qəbələ |
|---|---|---|---|---|---|---|---|---|
| Əvəzedici | Binə stadionu | Zirə İdman Kompleksi | Zirə İdman Kompleksi | İnter Arena 1-ci meydança | Gəncə şəhər stadionu | Kapital Bank Arena | Bayıl Arena | Qəbələ şəhər stadionu 10-cu meydança |
| U-19 | Binə stadionu | Binə stadionu | Zirə İdman Kompleksi | İnter Arena 4-cü meydança | Gəncə şəhər stadionu | Kapital Bank Arena | Dalğa Arena 2-ci meydança | Qəbələ şəhər stadionu 10-cu meydança |
| U-17 | Binə stadionu | Sərhədçi İOM | Zirə İdman Kompleksi | İnter Arena 4-cü meydança | Gəncə şəhər stadionu | Kapital Bank Arena | Dalğa Arena 2-ci meydança | Qəbələ şəhər stadionu 8-ci meydança |
| U-16 | Binə stadionu | Sərhədçi İOM | Zirə İdman Kompleksi | İnter Arena 4-cü meydança | Gəncə şəhər stadionu | Kapital Bank Arena | Dalğa Arena 2-ci meydança | Qəbələ şəhər stadionu 8-ci meydança |
| U-15 | Binə stadionu | Sərhədçi İOM | Zirə İdman Kompleksi | İnter Arena 4-cü meydança | Gəncə şəhər stadionu | Kapital Bank Arena | Dalğa Arena 2-ci meydança | Qəbələ şəhər stadionu 8-ci meydança |
| U-10 - U-14 | Meydançalar mərkəzləşdirilmiş şəkildə AFFA tərəfindən təşkil olunur | | | | | | | |
| Qızlar | Binə stadionu | | | | | Kapital Bank Arena | Bayıl Arena | Qəbələ şəhər stadionu 8-ci meydança |

# Təbii və süni meydançalar




**UEFA klub yarışlarında iştirak edəcək bütün komandalar öz oyunlarını təbii örtüklü meydançada keçirəcəklər**



Zirə İdman Kompleksi



Qəbələ şəhər stadionu

# Mövsüm ərzində görülmüş işlər

**2015/2016-cı il futbol mövsümü ərzində qarşıdan gələn mövsüm üçün lisenziyaya ərizə verən bütün klubların stadionlarına səfər edilmiş və inspeksiya keçirilmişdir.**

**Hər bir stadion haqqında geniş izahlı hesabat tərtib edilmiş və klublara təqdim olunmuşdur.**

**Hər bir klubun rəhbərliyinə stadionlarda mövcud olan çatışmazlıqları əks etdirən rəsmi hesabat təqdim olunmuşdur**



AFFA
Azərbaycan Futbol Federasiyaları Assosiasiyası

SGS
Lisenziyalaşdırma Qrupu
Licensing Group

№ 32
30.03.2016

Qarabağ Futbol Klubunun direktoru
cənab E. Çelikelə

Hörmətli Emrah müəllim,

Məlumat üçün bildiririk ki, cari mövsümün lisenziyalaşdırma prosesi çərçivəsində klubunuz tərəfindən infrastruktur meyarları üzrə təqdim olunmuş sənədlər əsasında 3 dekabr 2015-ci il tarixində, Tofiq İsmayılov adına Stadionda inspeksiya keçirilmişdir.

İnspeksiya zamanı stadionun 2016/2017-ci il mövsümündə Premyer Liqa yarışlarının oyunlarını keçirmək üçün hazırlıq səviyyəsi araşdırılmış və aşağıdakı çatışmazlıqlar aşkar olunmuşdur:

1. Stadionun kənarı və daxilində istifadə, davranış qaydalarını əks etdirən lövhələr, işarələr mövcud deyil.
2. Zəruri avadanlıqlı nümayəndə otağı mövcud deyil.
3. Azarkeşlər üçün ilk tibbi yardım guşələri mövcud deyil.

Qeyd: 3-cü bənd oyunlar zamanı mobil (səyyari) şəkildə tənzimlənə bilər.

Qeyd olunanları nəzərə alaraq, yuxarıda əks olunmuş çatışmazlıqların aradan qaldırılmasına və 29 aprel 2016-cı il tarixinədək Lisenziyalaşdırma qrupuna, görülmüş işlər barədə məlumat verilməsinə göstəriş verməyinizi Sizdən xahiş edirik.

Qeyd etmək istərdik ki, tərəfinizdən təqdim olunacaq sənədlər AFFA-nın Lisenziya komissiyasına təqdim olunacaq və klubunuza növbəti mövsüm üçün nəzərdə tutulmuş lisenziyanın verilməsi ilə bağlı müvafiq qərar qəbul olunacaq.

İnspeksiya ilə bağlı hesabat məktuba əlavə olunur.

Hörmətlə,

Elçin Məmmədov
Lisenziyalaşdırma qrupunun rəhbəri

SOCAR
Association of Football Federations of Azerbaijan



AFFA

**AFFA tərəfindən Gəncə Şəhər Stadionunun İnspeksiyası**

**İnspeksiya tarixi:** 18 noyabr, 2015.

**Məqsəd:** 2016/2017-ci il mövsümü üzrə Azərbaycan Premyer Liqasında iştirak etmək məqsədiylə lisenziya üçün müraciət etmiş Kəpəz Futbol Klubunun Stadionunun lisenziyalaşdırma qaydalarına uyğunluğunun müəyyən edilməsi.

**AFFA nümayəndələri:**

1. Elçin Məmmədov – Lisenziyalaşdırma qrupunun rəhbəri.
2. Əmrah Rəhimli – Lisenziyalaşdırma qrupunun infrastruktur meyarları üzrə mütəxəssisi.

**Hesabat**

**28 Noyabr, 2015**

# Lisenziyalaşdırma prosesi çərçivəsində stadionlarda görülmüş işlər

Əvvəl

Sonra
























- Kapital Bank Arenada Media tribuna və 1 ədəd əlavə bayraq dirəyi quraşdırılmışdır
- AZAL stadionunda əlil azarkeşlər üçün sanitar qovşaq quraşdırılmış, azarkeşlər üçün olan oturacaqlar tam şəkildə nömrələnmiş, azarkeşlər üçün ilk tibbi yardım güşəsi ayrılmışdır.
- İnter Arenada azakeşlər üçün ilk tibbi yardım güşəsi ayrılmışdır.
- Klublar stadionlarda olan müəyyən çatışmazlıqlarla bağlı öhdəlik götürmüşdür

AFFA

Azərbaycan Futbol Federasiyaları Assosiasiyası

# Kadr-inzibati meyarları üzrə statistik göstəricilər

# Klub katibliyi

## Klubların ofisləri harada yerləşir?




- Bütün klubların ofisləri zəruri əlaqə vasitələri (e-mail, fax və s.) ilə təmin olunub
- Bütün klubların rəsmi internet saytları fəaliyyət göstərir
- Sumqayıt və Kəpəz klubları istisna olmaqla bütün klubların ofisləri Bakı şəhərində yerləşir.

# Klubların maliyyə menecerləri hansı ixtisasa malikdirlər?




# Klubların təhlükəsizlik xidmətinin rəhbərləri hansı ixtisasa malikdirlər?



# Klublarda mətbuat katibiləri hansı ixtisasa malikdirlər?




AFFA tərəfindən keçirilən seminarda iştirakla bağlı sertifikat

Jurnalistika üzrə ali təhsil

Jurnalistika üzrə ali təhsilli mətbuat katibləri həmçinin AFFA tərəfindən verilən sertifikatlara malikdirlər

# Azarkeşlərlə əlaqələndirici şəxs və Əlil azarkeşlərlə əlaqələndirici şəxs

Azarkeşlərlə əlaqələndirici şəxs

Fərdi mütəxəssis

Ali təhsilli

Orta təhsilli







# Komandaların həkimləri və fizioterapevtləri hansı fakültəni bitirib?




Müalicə işi

Pediatriya

Sanitariya

- Klublarda çalışan bütün həkimlər Azərbaycan vətəndaşıdırlar

# Komandaların fizioterapevtləri hansı fakultəni bitirib?




Müalicə işi

Tibbi profilaktika

Massajçı sertifikatı

- Qəbələ İK-də Ukrayna vətəndaşı olan fizioterapevt çalışır
- Digər klublarda çalışan fizioterapevtlər Azərbaycan vətəndaşıdır

## Lisenziyalaşdırma üzrə menecer vəzifəsini hansı əməkdaşlar yerinə yetirir?




## Stadionun ot örtüyünə qulluq üzrə mütəxəssis vəzifəsi kim tərəfindən icra olunur?




## TMS üzrə menecer vəzifəsini hansı əməkdaşlar yerinə yetirir?




## Klublarda neçə mühafizəçi (stüard) çalışır?



# Əsas komandalarının baş məşqçiləri hansı ixtisaslara malikdirlər?




- 2013-14-cü il mövsümündə Premyer Liqada çalışan məşqçilərin orta yaş həddi 52 olmuşdur.
- 2014-15-ci il mövsümündə isə bu göstərici 47 olmuşdur
- 2015-16-cı il mövsümündə isə 46,5-dir

- Ən gənc məşqçilər Samir Abbasov (Sumqayıt FK) - 38 yaş
- Ən yaşlı məşqçi Zaur Svanadze (İnter PİK) - 60 yaş

# Əsas komandalarının baş məşqçiləri hansı ölkələrin vətəndaşıdırlar?






# Baş məşqçinin köməkçiləri hansı ixtisasa malikdirlər və hansı ölkələrin vətəndaşıdırlar?







# Əsas komandanın məşqçi heyəti hansı ölkələri təmsil edir? (müqayisə)

| KLUB | BAŞ MƏŞQÇİ | BAŞ MƏŞQÇİNİN KÖMƏKÇİSİ | QAPIÇILAR MƏŞQÇİSİ | FİZİKİ HAZIRLIQ ÜZRƏ MƏŞQÇİ |
|---|---|---|---|---|
| Neftçi PFK | AZƏRBAYCAN | AZƏRBAYCAN | AZƏRBAYCAN | AZƏRBAYCAN |
| AZAL PFK | AZƏRBAYCAN | AZƏRBAYCAN | AZƏRBAYCAN | AZƏRBAYCAN |
| Sumqayıt FK | AZƏRBAYCAN | AZƏRBAYCAN | AZƏRBAYCAN | AZƏRBAYCAN |
| Xəzər Lənkəran FK | AZƏRBAYCAN | AZƏRBAYCAN | AZƏRBAYCAN | |
| İnter PİK | GÜRCÜSTAN | GÜRCÜSTAN | AZƏRBAYCAN | AZƏRBAYCAN |
| Zirə FK | AZƏRBAYCAN | AZƏRBAYCAN | AZƏRBAYCAN | AZƏRBAYCAN |
| Qarabağ FK | AZƏRBAYCAN | BOLQARISTAN | AZƏRBAYCAN | AZƏRBAYCAN |
| Qəbələ İK | UKRAYNA | UKRAYNA | AZƏRBAYCAN | UKRAYNA |
| Kəpəz PFK | AZƏRBAYCAN | AZƏRBAYCAN | AZƏRBAYCAN | AZƏRBAYCAN |

## Gənclər futbolunun inkişafı proqramının rəhbərləri

### (ixtisaslar və təmsil etdikəri ölkələr)




Gənclər Futbolunun İnkişafı Proqramının rəhbərləri UEFA A məşqçilik kateqoriyasına malikdir.

## Klublarda çalışan yerli və xarici məşqçilərin nisbəti

### ÜMUMİ




## Fiziki hazırlıq və qapıçıların hazırlığı üzrə məşqçilər

### hansı ixtisasa sahibdir?




## Qapıçıların hazırlığı üzrə məşqçilər



# Əvəzedici və Uşaq-Gənclər komandalarının məşqçiləri ixtisaslar

| Klub | Gənclər komandaları | | | | | | | | | | | Kateqoriyalar | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Əvəz-edici | U-19 | U-17 | U-16 | U-15 | U-14 | U-13 | U-12 | U-11 | U-10 | QK* | UEFA Pro | UEFA A | UEFA B | UEFA C | ADBTİA |
| Neftçi PFK | A | A | A | B | A | B | B | B | B | B | C | - | 4 | 6 | 1 | - |
| Xəzər Lənkəran FK | B | B | B | B | B | B | A** | B | B | B | - | - | 1 | 9 | - | - |
| Zirə PFK | B | B | B | B | B | B | B | B | ADBTİA | ADBTİA | - | - | - | 8 | - | 2 |
| Qarabağ FK | **A** | A | B | A | A* | B | A | A | B | Pro | - | 1 | 5 | 3 | - | - |
| İnter PİK | B | B | B | B | B | B | A* | B | B | B | - | - | 1 | 9 | - | - |
| AZAL PFK | B | B | B | B | B | B | B | A* | B | B | - | - | 1 | 9 | - | - |
| Qəbələ İK | A | A | B | A** | B | A | B | B | B | B | B | - | 4 | 7 | - | - |
| Kəpəz PFK | A | B | B | B | A* | B | B | B | B | B | - | - | 2 | 8 | - | - |
| Sumqayıt FK | A* | A | A | A | B | B | ADBTİA | B | B | B | B | - | 4 | 6 | - | 1 |
| **Liqalar üzrə** | | | | | | | | | | | | **Ümumi say** | | | | |
| | | | | | | | | | | | | UEFA Pro | UEFA A | UEFA B | UEFA C | ADBTİA |
| UEFA Pro | - | - | - | - | - | - | - | - | - | 1 | - | 1 | 22 | 65 | 1 | 3 |
| UEFA A | 5 | 4 | 2 | 3 | 3 | 1 | 2 | 2 | - | - | - | | | | | |
| UEFA B | 4 | 5 | 7 | 6 | 6 | 8 | 4 | 7 | 8 | 7 | 2 | | | | | |
| UEFA C | - | - | - | - | - | - | - | - | - | - | 1 | | | | | |
| ADBTİA | - | - | - | - | - | - | 1 | - | 1 | 1 | - | | | | | |

QEYD:

*Xarici məşqçilər rəhbərlik edir

* GFİP rəhbəri məşqçi qismində fəaliyyət göstərir

*QK – Qızlar komandası

ADBTİA - Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası

AFFA

Azərbaycan Futbol Federasiyaları Assosiasiyası

# Hüquq meyarları üzrə statistik göstəricilər

# Klublarda struktur necə təşkil olunub?

## Struktur klublar tərəfindən təqdim olunmuş sənədlərə istinadən tərtib olunub




Müəyyən klublarda əlavə olaraq Fəxri Prezident və Fəxri Vitse-prezident vəzifələri, həmçinin «Veteranlar», «Təşkilati metodik», «Nəzarət-təftiş», «Transfer məsələləri», «Digər klublar üzrə işlər» şöbələri mövcuddur.

# Klubların Ali Rəhbərliyi
## AFFA tərəfindən təklif olunan struktur




# Klublarda hansı əməkdaşlar imza səlahiyyətinə malikdirlər?




2014-2015 mövsümü




2015-2016 mövsümü

- Digər
- Lisenziyalaşdırma üzrə menecer
- Maliyyə meneceri
- Prezident
- Kadrlar üzrə mütəxəssis
- Vitse-prezident
- Direktor (İcraçı direktor, Baş menecer)

# Klubların təsisçiləri barədə statistik göstəricilər




Qeyd: Klubların təşkilati-hüquqi formaları əsasən Məhdud Məsuliyyətli Cəmiyyətdir.

AFFA
Azərbaycan Futbol
Federasiyaları Assosiasiyası

# Maliyyə meyarları üzrə statistik göstəricilər

Qeyd: Rəvan FK maliyyə sənədlərini təqdim etmədiyi üçün maliyyə meyarları üzrə hesabat 9 klub üzrə hazırlanıb.

# 2014-cü ildən 2015-ci ilə nisbətən klublar gəliri haradan əldə edir?










2015-ci ildə klubların ümumi gəlirləri keçən ilə nisbətən 3% azalmışdır (AZN)

2013-2014-cü illərdə sponsorlar klubların ümumi gəlirlərinin 91%-ı təmin etmişdir

2015-ci ildə isə bu rəqəm 77% təşkil etdi

Əsas səbəb sponsorlardan daxilolmaların azalmasıdır

Digər səbəb isə 2 klubumuzun (Qarabağ FK və Qəbələ İK) UEFA-nın Avropa Liqasının qrup mərhələsinə düşməsidir.

Bununla bağlı olaraq UEFA-dan daxilolmalar 7%-dən 20%-ə yüksəlmişdir

# Klubların büdcəsinə vəsait haradan daxil olur?
## (2014-cü və 2015-ci illərin müqayisəsi)



# Premyer Liqa və UEFA-nın yarışlarına bilet satışından əldə olunmuş gəlirlər

## Premyer Liqa yarışlarına bilet satışından gəlirlər




Premyer Liqa oyunlarına bilet satışından olan ümumi gəlirlər **(+17%)**, UEFA-nın yarışları üzrə isə **(+133%)** artmışdır

## UEFA-nın yarışlarına bilet satışından gəlirlər




Xəzər Lənkəran FK
Neftçi PFK
Simurq PİK
Azal PFK
Qəbələ İK
Qarabağ FK
İnter PİK
Kəpəz PFK

AFFA
Azərbaycan Futbol
Federasiyaları Assosiasiyası

# Hesabatı hazırlayanlar



**Elxan Məmmədov**
Baş katib



**Elçin Məmmədov**
Lisenziyalaşdırma qrupunun rəhbəri



**İlqar Əliyev**
Lisenziyalaşdırma qrupunun rəhbər müavini



**Bəhram Dadaşov**
Maliyyə və kadr-inzibati meyarlar üzrə ekspert



**Anar Kazımlı**
İdman meyarları üzrə ekspert



**Günay Zamanlı**
Hüquq meyarları üzrə ekspert



**Aynur Abdullayeva**
Maliyyə meyarları üzrə ekspert



**Əmrah Rəhimli**
İnfrastruktur meyarları üzrə ekspert

AFFA

Azərbaycan, Bakı AZ 1025,
Nobel prospekti 2208
Tel: +99412 404 2777
Faks: +99412 404 2772
info@affa.az
www.affa.az

**KLUBLARIN LİSENZİYALAŞDIRILMASI ÜZRƏ HESABAT 2016**
Azərbaycan Futbol Federasiyaları Assosiasiyası

Şəkillər
AFFA-nın arxivi, Qənbər Cəlilov, Eldəniz Bədəlov

Qrafik dizayn
Baxşiyev Xamid

AFFA

Azərbaycan Futbol
Federasiyaları Assosiasiyası